Təhsildə inkişaf və innovasiyalar üzrə V qrant müsabiqəsinə daxil olmuş layihə təkliflərinin texniki ekspertiza mərhələsi yekunlaşıb. Müsabiqəyə təqdim edilmiş 971 layihədən 970-i bu mərhələdən uğurla keçib.

Hazırda texniki ekspertizadan keçmiş layihələrin qiymətləndirilməsi aparılmaqdadır. Müsabiqəyə marağın və müraciət sayının ilbəil artmasını nəzərə alaraq, cari ildə prosedurlara yenilik edilərək, qiymətləndirmə zamanı yaranmış sualların aydınlaşdırılması üzrə layihə müəllifləri ilə onlayn görüşlərin keçirilməsinə başlanılıb.

Qaliblərin müəyyənləşdirilməsi prosesinin iyul ayında yekunlaşacağı gözlənilir.